# HÜQUQİ ŞƏXSLƏRİN VƏ HÜQUQİ TƏSİSATLARIN BENEFİSİAR MÜLKİYYƏTÇİLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİNƏ DAİR METODOLOGİYA

## I. Ümumi müddəalar

**1.** Bu Metodologiya pulların leqallaşdırılması və terrorçuluğun maliyyələşdrilməsi ilə mübarizə (PL/TMM) sahəsində öhdəlik daşıyan şəxslər tərəfindən hüquqi şəxslərin və hüquqi təsisatların benefisiar mülkiyyətçilərinin (bundan sonra - BO) müəyyən edilməsinə metodik dəstək məqsədilə Maliyyə Monitorinqi Xidməti (MMX) tərəfindən hazırlanmışdır və tövsiyyə xarakteri daşıyır.

**2.** Bu Metodologiyada istifadə olunmuş anlayışlar "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda (bundan sonra – PL/TMM Qanunu) istifadə edilmiş anlayışlarla eyni mənanı ifadə edir.

**3.** Qanunda BO-nun müəyyən edilməsinin və eyniləşdirilməsinin ardıcıl olaraq biri-birini əvəz edən 3 səviyyəsi müəyyən edilmişdir.

**Səviyyə 1:** hüquqi şəxsə sahibliyi həyata keçirən fiziki şəxs və ya şəxslərin müəyyən edilməsi;

**Səviyyə 2:** hüquqi şəxsə başqa formada nəzarəti həyata keçirən fiziki şəxsin müəyyən edilməsi;

**Səviyyə 3:** hüquqi şəxsə rəhbərliyi həyata keçirən fiziki şəxsin müəyyən edilməsi.

**4.** Bu Metodologiya hər 3 səviyyədə nümunələrlə BO-nun müəyyən edilməsi qaydasını izah edir.

## II. Hüquqi şəxsə sahibliyi həyata keçirən fiziki şəxs və ya şəxslərin müəyyən edilməsi - Səviyyə 1

### İştirak payına və ya səsvermə hüququna birbaşa sahiblik

**5.** PL/TMM haqqında Qanuna əsasən öhdəlik daşıyan şəxslər ilk olaraq hüquqi şəxsə mülkiyyət hüququ və ya sahiblik vasitəsilə nəzarəti həyata keçirən fiziki şəxsi müəyyən etməyə cəhd göstərməlidirlər. Burada ilk addım əgər hüquqi şəxsdə iştirak paylarının bölgüsü mühüm iştirak payının mövcudluğunu istisna etmirsə hüquqi şəxsdə mühüm iştirak payına malik olan fiziki şəxsi (şəxsləri) müəyyən etmək olmalıdır. PL/TMM haqqında Qanuna əsasən mühüm iştirak payı dedikdə – hüquqi şəxsin nizamnamə kapitalının, habelə səsvermə hüququnun 10 (on) və ya daha çox faizini təşkil edən pay nəzərdə tutulur.

**6.** Dolayı sahiblikdə isə fiziki şəxsi BO kimi tanımağımız üçün fiziki şəxsin hüquqi şəxsdəki səhm və ya hüquqlara sahib olmasının ümumi dəyəri mülkiyyət zənciri ilə ölçüldükdə 25%-dən çox olmalıdır. Dolayı sahiblikdə 25 faizlik hədd tövsiyyə olunan hədd əir, ancaq öhdəlik daşıyan şəxs tərəfindən BO-nu təhlil edilərkən bu hədd 10 faizə çəkilə bilər. Nəzərə almaq lazımıdır ki, mürəkkəb strukturlu hüquqi şəxslərdə 10 faiz hədd yanaşması ilə təhlil

aparmaq qeyri effektivdir. Ona görə də hüquqi şəxsə birbaşa sahiblikdə və ya 1-ci nümunədəki 1-ci səviyyədən sahiblik hallarında 10 faizlik hədd yanaşması, 2-ci nümunədə verdiyimiz mürəkkəb strukturlu dolayı sahiblikdə isə 25 faizlik hədd yanaşmasının götürülməsi daha effektivdir.

**7.** Fiziki şəxs hüquqi şəxsdə mühüm iştirak payına birbaşa və dolayı sahibliyi həyata keçirə bilər. İştirak payına birbaşa sahiblik dedikdə hər hansı hüquq müəyyən edən sənəd əsasında (mülkiyyət hüququ, tələb hüququ, müqavilədən və ya qanundan irəli gələn hüquq) paya faktiki və ya hüquqi sahibliyi həyata keçirmək başa düşülür. Paya birbaşa sahiblik edən fiziki şəxsin adı hüquqi şəxsin təsis sənədlərində və ya səhmdarların reyestrində görünür. Ancaq aşağıdakı hallarda iştirak payına birbaşa sahiblik yolu ilə hüquqi şəxsə nəzarət edən BO-nu müəyyən etmək üçün əlavə araşdırma tələb oluna bilər.

***a.*** İştirak payı iki və ya daha çox şəxsə birgə mülkiyyət hüququ əsasında mənsubdur. Belə olduqda hər bir birgə mülkiyyətçi bütün payın mülkiyyətçisi kimi qeyd olunmalıdır. Misal üçün ərin 7 faiz iştirak payı var, arvadın isə 4 faiz iştirak payı var. Bu halda ər və arvadın hər biri 11 faiz payla mühüm iştirak payının sahibi kimi tanınmalıdır.

***b.*** İki və ya daha çox şəxs sahib olduqları iştirak paylarını birgə idarə edirlər. Bu halda isə iki və ya daha çox şəxs hüquqi şəxsdə paya birgə mülkiyyət hüququ əsasında deyil bu paya hüquqları birlikdə həyata keçənəcəklərinə dair aralarında bağlanmış müqavilə əsasında idarəetməni həyata keçirə bilərlər. Belə olduğu halda hər bir müqavilə tərəfi payın onun adına rəsmiləşdirilib rəsmiləşdirilməməsindən aslı olmayaraq müqavilə predmeti olan payın BO-su kimi tanınmalıdır. Misal üçün Əlinin A səhmdar cəmiyyətində 5 faizlik səhmi var. Əli həmçinin eyni səhmdar cəmiyyətdə 8 faiz səhmə malik Həsənlə aralarında müqavilə bağlayıb ki, sahib olduqları səhmlərdən irəli gələn hüquqları birgə və razılaşdırılmış qaydada həyata keçirəcəklər. Bu halda həm Əli, həm də Həsən 13 faizlik mühüm iştirak payı ilə A cəmiyyətinin BO-su kimi tanınmalıdırlar.

***c.*** İştirak payının sahibi kimi nominal saxlayıcı çıxış edir. Bu halda nominal saxlayıcı deyil iştirak payının mülkiyyətçisi benefisiar mülkiyyətçi kimi qeyd olunmalıdır. Nominal saxlayıcı iştirak payının mülkiyyətçisi arasında müqavilə əsasında ancaq öz adından çıxış edirlər. Qanunla nəzərdə tutulmuş hallarda nominal saxlayıcı iştirak payının mülkiyyətçisini açıqlamalıdır. Müştəri ilə işgüzar münasibətlər qurarkən hüquqi şəxsdə mühüm iştirak payının sahibinin başqa şəxsi nominal qaydada təmsil edib etmədiyini müəyyən etmək üçün ona iştirak payının mülkiyyətçisini bəyan etmək imkanı yaradılmalıdır. Əgər nominal saxlayıcı iştirak payının mülkiyyətçisinin özü olduğunu bəyan edirsə və sizin buna şübhəniz varsa müvafiq araşdırma apardıqdan sonra, müvafiq təhlil hesabatı ilə nominal saxlayıcı şərti olaraq "iştirak payının mülkiyyətçisi" sahib kimi qeydiyyata alın və təhlil hesabatını müştəri profilinə əlavə edin.

***d.*** Bir şəxsin iştirak payını digər şəxs idarə edir (əmlak idarəetməyə verilib, əmlakı yetkinlik yaşına çatmayan şəxsin valideyni və ya qəyyumu idarə edir, tərəflər arasında mülki hüquqi müqavilə var). Bu halda həm payın mülkiyyət hüququ əsasında sahibi, həm də payı idarə edən şəxs 10 faizlik həddi keçdikləri halda benefisiar mülkiyyətçi kimi qeyd olunmalıdır.

**8.** Əgər şəxs, hüquqi şəxsin sahiblik strukturunda birdən çox statusda (iştirak payının mülkiyyətçisi, iştirak payının birgə mülkiyyətçisi, payın nominal saxlayıcısı, payı idarə edən

şəxs) iştirak edirsə payın ona mülkiyyət hüququ əsasında mənsub olub olmamasından asılı olmayaraq bütün statuslar üzrə iştirak payının mülkiyyətçisivə ya təmsilçi (iştirak payının birgə mülkiyyətçisi, payın nominal saxlayıcısı, payı idarə edən şəxs) qismində iştirak etdiyi paylar toplanılmalıdır. Məsələn Əli 5 faizlik payın mülkiyyətçisi, 7 faizlik payın nominal saxlayıcısı, 13 faizlik payın isə idarəçisidir. Bu halda Əli 25 faizlik payın benefisiar mülkiyyətçisi kimi qeydə alınmalıdır.

**<u>Nümunə 1</u>**




**İştirak payına və səsvermə hüququna dolayı sahiblik**

**9.** İştirak payına və səsvermə hüququna dolayı sahiblik hüquqi şəxsin sahiblik və nəzarət strukturunda (zəncirində) 2 və daha artıq hüquqi şəxs iştirak etdiyi (mürəkkəb strukturlu hüquqi şəxs) hallarda baş verir.

Ona görə də son nəticədə hüquqi şəxsin fəaliyyətindən faydalanan edən fiziki şəxsləri müəyyən etmək üçün bu cür mürəkkəb sahiblik və nəzarət zəncirinə malik hüquqi şəxslərdə zəncirin hər bir həlqəsini təşkil edən hüquqi şəxsin ayrıca təhlil edilməsi zəruridir.

**10.** **<u>Nümunə 2</u>**




Nümunə 2-də BO-sunu təhlil etdiyimiz "GCo" – nun səhmlərinin 70 faizi "A" fiziki şəxsinə, səhmlərin 30 faizi isə "FCo" xarici şirkətə məxsusdur. "FCo"-da fiziki şəxs "B" 80 % səhmə məxsusdur.

Ona görə də "GCo"-da ümumi olaraq 24 faizlə (yəni, 30%-in 80%-i) ölçülən dolayı sahibliyə malikdir. Bu o deməkdir ki, "B"-nin cəmlənmiş kəmiyyət ekvivalentində "GCo"-da ümumi payı 25%-dən çox deyil. Lakin bununla belə səsvermə hüquqlarının 25 faizindən çoxuna sahib olan "FCo"-da səhmlərin əksəriyyətinə sahib olduğu üçün fiziki şəxs "B" və fiziki şəxs "A" "GCo"-da benefisiar mülkiyyətçidir.

"C" və "D" hər biri "FCo"-da səhmlərin 10%-nə sahibdirlər, buna görə də hər birinin "GCo"-da ümumi 3% (yəni 30%-in 10%-i) dolayı yolla payı var. Onların nə "GCo"-da 25%-dən çox ümumi səhmləri, nə də səsvermə hüququnun 25%-dən çoxuna sahib olan "FCo"-da əksəriyyət payı (50+1) olmadığı üçün, onlar "GCo"-nun benefisiar mülkiyyətçiləri hesab olunmayacaqlar.

## 11. Nümunə 3




Nümunə 3-də "GLP" məhdud məsuliyyətli xarici ortaqlıqdır. Onun səsvermə hüquqlarının 52%-i xarici şirkət olan "FCo"-ya, qalan 48%-i isə xarici fond olan "FFn"-ə məxsusdur.

"A" fiziki şəxsi "FCo"-da səhmlərin 50%-nə sahibdir, buna görə də "GLP"-də ümumi olaraq 26% (yəni, 52%-in 50%-i) səsvermə hüququna dolayı sahibliyə malikdir. Bu o deməkdir ki, "A", "GLP"-də səsvermə hüququnun 25%-dən çoxuna sahib olan "FCO"-da səsvermə hüquqlarının 25%-dən çoxuna sahib olduğu üçün GLP-nin benefisiar mülkiyyətçisidir.

"B" və "C" hər biri "FCo"-da səhmlərin 25%-nə sahibdir, buna görə də hər ikisi "GLP"-də ümumilikdə 13% (yəni 52%-in 25%-i) səsvermə hüququna dolayı sahibliyə malikdirlər. Dolayı sahiblikdə 25 faizlik hədd keçilmədiyi üçün nə "B" nə də "C" dolayı sahibliklə benefisiar mülkiyyətçi kimi görünməməyinə baxmayaraq, nəzərə almaq lazımdır ki, "B" və "C" "GLP"-də 52 % payı olan "FCo"-da 4 səs hüququndan birlikdə 2-nə malikdirlər və qərarların qəbul olunmasına təsir imkanları var. Ona görə "B" və "C" hüquqi şəxsə nəzarəti həyata keçirən şəxslər olaraq benefisiar mülkiyyətçi kimi tanına bilər.

"D" xarici fond olan "FFn"-nin aktivlərinin 100%-nin xarici ölkənin qanunvericiliyi ilə müəyyən olunmuş qaydada tələb hüquqları ilə maraqlı şəxsidir (benefisiar). Buna görə də "D" fiziki şəxsi "GLP"-də ümumi olaraq 48% (yəni 48%-in 100%-i) səsvermə hüququna dolayı sahibliyə malikdir. Səsvermə hüququ ilə dolayı nəzarətdə 25 faizlik hədd keçildiyinə görə "D" fiziki şəxsi də "A" fiziki şəxsi kimi təhlil etdiyimiz "GLP"-nin benefisiar mülkiyyətçisidir.

## 12. <u>Nümunə 4</u>

Hüquqi şəxslərə dolayı sahiblik həddən artıq mürəkkəb ola bilər. Məsələn aşağıdakı nümunədəki kimi:




Nümunə 4-də mürəkkəb sahiblik strukturuna malik olan "XYZ"- məhdud məsuliyyətli cəmiyyətdə fiziki şəxslər "O", "J" və "G" son nəticədə təhlil etdiyimiz hüquqi şəxsə dolayı sahibliyi və **<u>nəzarəti</u>** həyata keçirən fiziki şəxs olan BO-lardır. Belə ki, Cənab "O" dolayı sahiblik zəncirində 30 faiz, son nəticədə isə təhlil etdiyimiz "XYZ – LTD"-də "15" faiz paya malikdir. Baxmayaraq ki, onun son nəticədə payı 25 faizdən azdır, "LMN-LTD" şirkətində səsvermə hüququnun 3/1-nə sahibdir və "LMN-LTD" heç bir səhmdarın 50+1-lik səs hüququ mövcud deyil. Bu o deməkdir ki, Cənab "O"-nun təhlil etdiyimiz "XYZ-LTD"-də 50 % paya sahib olan "LMN-LTD"-də qərarların qəbul olunmasına təsir imkanı var və ona görə də BO kimi tanınmalıdır. Cənab J və Cənab G isə dolayı sahiblik üçün müəyyən etdiyimiz 25 faizlik həddi keçdiklərinə görə BO kimi tanınırlar.

## 13. <u>Nümunə 5</u>

Qohumluq və şəxsi əlaqələr vasitəsilə hüquqi şəxsə dolayı sahiblik:

Ola bilər ki, hüquqi şəxsdə səhmdarın və ya iştirakçının payı 10 faizdən az olsun. Ancaq əgər ailə üzvləri və yaxın tərəfdaşlarının (sürücü, katibə, biznes tərəfdaşı, yaxın qohumu) birlikdə sahib olduqları pay 10 faizi keçirsə onların hamısı payın dəyərindən aşlı olmayaraq BO kimi tanınmalıdır. Nümunəyə baxaq:






Azərbaycan üçün xarakterik olan yuxarıdakı nümunədə “A” baxmayaraq təhlil etdiyimiz “X” MMC-də 5 % paya malikdir və bu 10 faizlik həddi keçmir, onun öz yaxın tərəfdaşları olan arvadı, bacısı oğlu və sürücüsü ilə birgə payı 10 faizlik həddi keçdiyi üçün BO sayılmalıdır. Sürücü 30 faizlik paya sahib olduğuna baxmayaraq müştəri profili, fəaliyyəti və “A” ilə xidməti asılılığı onun əsl BO olmasına şübhələr yaradır. “F MMC”-də isə “A”-nın ata və anasının 25 faizlik payı baxmayaraq ki, müəyyən etdiyimiz dolayı sahiblik üçün 25 faizlik həddə çatmır həm “A” ilə qohumluq əlaqəsinə görə, həm də birlikdə 50 faizlik səsvermə hüququ ilə “F MMC”-də qərarların qəbuluna təsir imkanları ilə BO kimi qeyd olunmalıdır. A ilə heç bir əlaqəsi olmayan “B”-nin isə “XMMC”-də dolayı payı baxmayaraq ki, 25 faizə çatmır (45 in 50 faizi = 22.5 faiz) “B” 50 faizlik səs hüququ ilə “XMMC”-də qərarların qəbuluna təsir imkanı var və ona görə də BO kimi tanınmalıdır. Qohumluq münasibətlərinə əsaslanan BO strukturunda əsl BO-nun kim olduğunu bilmədiyimiz üçün bütün qohumları BO kimi qeyd edirik. Ümumiyyətlə əgər hüquqi şəxsin sahiblik strukturunda ər və arvad birlikdə iştirak edirsə ər arvadın mülkiyyəti birgə mülkiyyət olduğu üçün onların payları toplandıqdan sonra hədd yanaşması tətbiq edilməlidir.

## III. Hüquqi şəxsə başqa formada nəzarəti həyata keçirən fiziki şəxsin müəyyən edilməsi – səviyyə 2

**14.** Qanuna görə mühüm iştirak payına malik olan fiziki şəxsin (şəxslərin) hüquqi şəxsin benefisiar mülkiyyətçisi olmasına dair şübhələr olduqda və ya iştirak payı əsasında hüquqi şəxsə nəzarəti həyata keçirən fiziki şəxs (şəxslər) mövcud olmadıqda, hüquqi şəxsə başqa formada mövcud nəzarəti həyata keçirən fiziki şəxs (şəxslər) BO kimi müəyyən edilməlidir.

**15.** Hüquqi şəxsə səhmlərə və paylara birbaşa və dolayı sahiblikdən başqa digər üsullarla aşağıdakı hallarda nəzarətin həyata keçirilməsi mümkündür:

**a)** hüquqi şəxsin rəhbərliyini (təkbaşına və ya kollegial nəzarət və icra orqanlarının üzvləri) vəzifəyə təyin etmək və vəzifədən çıxarmaq hüququndan istifadə etməklə hüquqi şəxsə nəzarətin həyata keçirilməsi;

**b)** hüquqi şəxsin əsas biznes partnyoru olmasından, şirkətin maliyyələşdirilməsində inhisarçı mövqeyindən çıxış etməklə hüquqi şəxsə nəzarətin həyata keçirilməsi;

**c)** hüquqi şəxsə qohumluq, xidməti və ya digər aşlılıq münasibətlərindən istifadə etməklə nəzarətin həyata keçirilməsi;

**d)** hüquqi şəxslə aralarında müqavilə münasibətlərindən istifadə edərək hüquqi şəxsin əsas biznes layihələrində, investisiya planlamasında veto hüququndan istifadə etməklə və ya qərarların qəbuluna başqa formada təsir göstərməklə hüquqi şəxsə nəzarətin həyata keçirilməsi.

**16.** **<u>Nümunə 6</u>**




Nümunə 6-da "GFn" xarici fonddur. Bilindiyi kimi fondlarda idarəetmə iştirak paylarına və ya sahibliyə əsaslanmır. Fondlarda qərarların verilməsinə ən çox təsir göstərən şəxslər BO kimi tanınmalıdır. "A" və "B" fiziki şəxsləri və "FCo" hüquqi şəxsi fondda vəzifəli şəxsləri təyin etmək və vəzifədən azad etmək hüquqları var. "A" və "B" ilə məsələ aydındır onların hər ikisi BO kimi tanınır. "FCo" isə hüquqi şəxs olduğu üçün burada biz son nəticədə hüquqi şəxsə sahibliyi və ya nəzarəti həyata keçirən fiziki şəxsi müəyyən etmək üçün təhlil aparmalıyıq. Effeftivlik üçün qeyd etdiyimiz kimi dolayı sahibliklərdə 25 faizlik hədd yanaşması tətbiq edirik.
"C" və "D" hər biri "FCo"-da səhmlərin 20%-nə sahibdir. 25 faizlik həddi keçmədikləri üçün onları BO kimi tanımırıq. Fiziki şəxs "E" isə "FCo"-nun əsas səmdarı olan "FLLP"-də 51 %, "FCo"-da isə kəmiyyət cəmlənməsi ilə 30.6 % (60 %-in 51 faizi) dolayı paya sahibdir. Fiziki şəxs "E" 25 faizlik həddi keçdiyi üçün onu "GFn" fondunda BO kimi tanıyırıq.

**17.** Bir qayda olaraq həm ölkəmizdə, həm də xaricdə hüquqi şəxslərin idarəetmə orqanları hüquqi şəxsdə iştirak payına və ya səhmlərə malik şəxslərin sahib olduqları paya mütənasib şəkildə formalaşdırılır. Təsisçilərin ümumi yığıncağı müşahidə şurasının üzvlərini, müşahidə şurası isə səs çoxluğu ilə (sadə, 3/2, 4/3 və ya yekdil) idarətme orqanlarının üzvlərini (idarə heyəti, icraçı direktor) vəzifəyə təyin və ya vəzifədən azad edir. Bununla belə hüquqi şəxsin nizamnaməsində hüquqi şəxsdə sahib olduğu payın həcmindən aslı olmayaraq hər hansı iştirakçıya və ya səhmdara hüquqi şəxsin vəzifəli şəxslərinin təyini və vəzifədən azad edilməsi ilə bağlı müstəsna hüquqlar, o cümlədən qərarların qəbuluna veto hüququ verilə bilər. Mülki Məcəllənin 89-cu maddəsinə əsasən məhdud məsuliyyətli cəmiyyətin nizamnaməsində **cəmiyyəti idarəetmə orqanlarının tərkibi və səlahiyyəti, onların qərarlar qəbul etməsi,** o cümlədən barəsində yekdilliklə və ya **şərtləşdirilmiş səs çoxluğu** ilə qərarlar qəbul edilməsi qaydası haqqında şərtlər göstərilməlidir. Analoji müddəalar səhmdar cəmiyyətlərinə də aiddir. Göründüyü kimi qanunvericilik idarəetmə orqanlarının şərtləndirilmiş (iştirak payına qeyri mütənasib olaraq) şəkildə səs vermə yolu ilə formalaşdırılmasına yol verir. Analoji qaydalar xarici ölkələrin hüquqi şəxslərində də tətbiq olunur.

**18.** Xarici şirkətlərdə hüquqi şəxsin vəzifəli şəxslərinin təyinatı və vəzifədən azad olunması ilə bağlı məsələlər təsisçi və ya səhmdarlar arasında xüsusi müqavilələrlə tənzimlənə bilər. Belə hallarda xarici hüquqi şəxsin təsis sənədlərinə baxıb vəzifəli şəxslərin təyinatı ilə

bağlı təsisçilər arasında ayrıca razılaşmanın olub olmamasına diqqət yetirilməlidir. Əgər təsis sənədlərində təsisçi və ya səhmdarlar arasında ayrıca razılaşmaya göndərici müddəa varsa, müştəridən bu cür razılaşmalar tələb olunmalı və hüquqi şəxsdə vəzifəli şəxsləri təyin etmək və vəzifədən azad etmək hüququ olan şəxslər müəyyən edilməlib BO kimi tanınmalıdır.

**19. Nümunə 7**




Cənab "D", "M" şirkətinin əsas kreditoru olan bankın idarəedici direktorudur. Belə bir vəziyyətdə cənab "D", "M" şirkətinin on faizindən azına (10%) sahib olsa belə "M" şirkəti üzərində effektiv nəzarətə malikdir və BO kimi eyniləşdirilməlidir.

**20. Nümunə 8**




"A" fiziki şəxsi "GCo" şirkətinin yeganə biznes tərəfdaşıdır və "GCo" ilə aralarında olan müqavilələr ona, "GCo"-nun fəaliyyəti ilə bağlı istənilən məsələdə veto qoymaq və biznes planların təsdiqi kimi strateji qərarların qəbuluna təsir göstərmək imkanı verir. Ona görədə "GCo"-da hər hansı paya sahib olmasa da "A" fiziki şəxsi "GCo"-nun BO-su kimi tanına bilər.

**21. Nümunə 9**




"A" "GLLP"-nin təsisçisidir və 100 faiz pay ilə onun sahibi kimi özünü təqdim edir. "B" isə "GLLP"-də direktordur və iş adamıdır. "A", "GLLP"-də bağban kimi çalışır. Bu nümunədə baxmayaraq ki, "A" 100 % lik sahib kimi təqdim olunur, xidməti asılıq münasibətlərindən çıxış edərək həmçinin "B", bu nümunədə BO kimi tanınmalıdır.

22. **<u>Nümunə 10</u>**




10-cu nümunədə "A" işadamı "B"-nin oğludur. Baxmayaraq ki, "B" mülkiyyət yolu ilə şirkət üzərində heç bir nəzarəti yoxdur, "B" oğlu üzərində söz sahibidir və şirkətdə bütün qərarların qəbuluna təsir imkanı var. Beləliklə "B", "GLP"-nin BO-su kimi qəbul edilməlidir. Bu cür şirkətlərdə nüfuzlu iş adamı olan atalar adətən "kölgə direktor" kimi şirkəti idarə edirlər.
"C" isə "GLP"-də mühasibdir. "GLP"-nin maliyyə hesablarının hazırlanmasına əlavə olaraq "C", bəzən "GLP"-nin vergi planlaşdırması ilə bağlı məsləhətlər verir. Lakin bu, normal müştəri-mühasib münasibətləri daxilindədir. Buna görə də "C," "GLP"-nin BO-su hesab olunmur.

## VI. Hüquqi şəxsə idarəetmə vasitəsilə nəzarət - Səviyyə 3

**23.** PL/TMM haqqında Qanuna görə əgər hüquqi şəxs üzərində iştirak payı əsasında və ya başqa formada nəzarəti həyata keçirən fiziki şəxsi müəyyən etmək mümkün deyildirsə, hüquqi şəxsə rəhbərliyi həyata keçirən fiziki şəxs (şəxslər) BO kimi müəyyən edilməlidir. Hüquqi şəxsin rəhbəri dedikdə hüquqi şəxsin adından çıxış edən, hüquqi şəxsin idarəetmə orqanlarında (müşahidə (direktorlar) şurası, icra orqanı) təmsil olunan şəxslər (vəzifəli şəxslər), habelə hüquqi şəxslərdə strateji qərarların qəbul edilməsində iştirak edən digər vəzifəli şəxslər başa düşülür.
Aşağıdakı nümunə üzərindən təhlil edək:

24. **<u>Nümunə 11</u>**



Yuxarıda verilmiş nümunədə yerli “A” MMC-də 100 faizlik pay “B” MMC-yə məxsusdur. “B” MMC-də isə 75 % pay xarici ölkədə qeydiyyatda olan F LLC-yə, 25 % pay isə 100-dən çox minoritar səhmdarı olan səhmdar cəmiyyətinə məxsusdur. “F” LLC-dən BO ilə bağlı məlumat tələb etdikdə məlum olur ki, onun 100 faiz pay ilə sahibi ofşor zona olan Kayman adalarında qeydiyyatdan keçmiş vəkil ofisinin vəkili cənab “X”-dir. Bu halda, “A” MMC-nın BO-su olan fiziki şəxs müəyyən edilməsi çox çətindir, bəzi hallarda isə mümkün deyil. Standard qaydanı tətbiq etməli olsaq Kayman adalarında qeydiyyatdan keçmiş vəkili BO kimi qəbul etməliyik. Ancaq aydındır ki, xarici ölkədə fəaliyyət göstərən vəkilin Azərbaycanda biznes maraqları ola bilməzdi və böyük ehtimal ki, nominal saxlayıcı kimi çıxış edir. Nominal saxlayıcı səhmin əsl sahibi ilə aralarında bağlanmış müqaviləyə əsasən səhmin əsl sahibi kimi öz adından çıxış edir. Milli qanunvericilik reyestr saxlayıcı sorğu verdikdə nominal saxlayıcının üzərinə səhmin əsl sahibini açıqlamaq vəzifəsi qoyur. Kayman adaları isə ofşor zona olduğu üçün nominal sahibin üzərinə əsl sahibi açıqlamaq öhdəliyi qoymur. Bu cür hallarda “A” MMC-nin faktiki rəhbəri şərti BO olaraq müəyyən edilməli, MMC-nin özü isə riskli müştəri kimi siniflənditilib əməliyyatlarına gücləndirilmiş davamlı monitorinq tətbiq olunmalıdır.

**25.** **<u>Nümunə 12</u>**




Burada yerli “A” MMC-nin təsisçisi 100 faizlik pay ilə xaricdə fəaliyyət göstərən “F” investisiya fondudur. Bütün dünyada kifayət qədər investisiya fəaliyyətləri olan “F” fondu irili, xırdalı 100 dən çox digər investisiya şirkətlərinin aktivləri hesabına formalaşdırılıb və bu investisiya şirkətinə konkret bir şəxs sahibliyi və nəzarəti həyata keçirmir. Belə olan halda konkret fiziki şəxsi müəyyən etmək çox çətin və qeyri effektivdir. Belə olan hallarda “A” MMC-nin və “F” investisiya fondunun idarəçiləri BO kimi müəyyən olunmalı və 11-ci nümunədən fərqli olaraq “A” MMC ağlabatan və mövcud biznes praktikasına uyğun olan sahiblik və idarəetmə strukturuna malik olduğuna görə riskli müştəri kimi yox, normal müştəri kimi eyniləşdirilməlidir. Əgər yerli şirkətdə beynəlxalq birjalarda listinq olunan xarici şirkətin 10 faizdən çox payı varsa, burada da şəffaflıq təmin olunduğu üçün BO olan fiziki şəxs deyil, listinq olunan şirkətin idarəetmə orqanının müəyyən edilməsi kifayət edəcəkdir.

## VII. Xaricdə qeydiyyatdan keçən hüquqi təsisatın BO-nun müəyyən edilməsi qaydası

**26.** 12-ci nümunədə G LP səsvermə hüququ verən bütün səhmləri hüquqi şəxs olan və trast idarəçisinə aktivlərin idarə edilməsi ilə bağlı geniş qərarvermə səlahiyyətləri verilmiş trasta (discretionary trust) məxsus olan hüquqi şəxsdir və trast idarəçisindən başqa hər hansı şəxs trast ilə bağlı səlahiyyətlərə malik deyil. Bu halda həm trast idarəçisi, həm də onun benefisiar mülkiyyətçisi G LP-nin benefisiar mülkiyyətçiləri hesab olunurlar.

**<u>Nümunə 12</u>**




**27.** Xarici fond olan G Fn-in səsvermə hüququ verən səhmlərinin ən böyük hissəsi "fixed" trasta məxsusdur. Trastın idarəçisi hüquqi şəxsdir. A trastın yeganə benefisiar mülkiyyətçisidir. B isə trast təminatçısıdır və trast müqaviləsi əsasında aktivlərin idarə edilməsində qərar verilərkən məsləhət vermə səlahiyyətinə malikdir. Fondun digər payçısı olan C isə mühüm iştirak payına malik deyil. Bu halda trast idarəçisi və A G Fn-in benefisiar mülkiyyətçiləridirlər.

**<u>Nümunə 13</u>**




**28.** G LLP xarici məhdud məsuliyyətli cəmiyyətdir və səsvermə hüququ verən paylarının 50%-i hüquqi şəxs olan trast idarəçisinə aktivlərin idarə edilməsi ilə bağlı geniş qərarvermə səlahiyyətləri verilmiş trasta (discretionary trust), qalan 50%-i isə B-yə məxsusdur. A trast müqaviləsi üzrə müqviləyə dəyişiklik və əlavələr etməyə tamhüquqlu şəxsdir. Bu halda, həm trast idarəçisi, həm A, həm də B məhdud məsuliyyətli cəmiyyətin benefisiar mülkiyyətçiləridir.

**Nümunə 14**




**29.** G Co bütün payları trast idarəçisinə aktivlərin idarə edilməsi ilə bağlı geniş qərarvermə səlahiyyətləri verilmiş trasta (discretionary trust) məxsus şirkətdir. Şirkətin nümayəndəsi trast idarəçisinin trastın fəaliyyətinə dair bütün məsələlərdə öz səlahiyyətlərini faktiki olaraq və mütəmadi əsasla trastın təsisçisinin (A) göstərişləri əsasında icra edən qeyri-professional və təcrübəsiz şəxs olduğundan xəbərdardırsa, bu zaman həm trast idarəçisi, həm də A hüquqi şəxsin benefisiar mülkiyyətçiləri qismində nəzərdən keçirilməlidirlər.

**Nümunə 15**




**30.** Xaricdə təsis edilmiş G LLP səsvermə hüququ verən səhmlərinin ən böyük hissəsi trast idarəçisinə aktivlərin idarə edilməsi ilə bağlı geniş qərarvermə səlahiyyətləri verilmiş trasta (discretionary trust) məxsusdur. Trast idarəçisi birja qismində qeydiyyatdan keçmişdir və trast idarəçisindən başqa hər hansı şəxs trast ilə bağlı səlahiyyətlərə malik deyil. Beləliklə, trast idarəçisi G LLP-nin benefisiar mülkiyyətçisidir. A isə mühüm iştirak payından az hissəyə malik olduğundan benefisiar mülkiyyətçi hesab edilməyəcəkdir.

**Nümunə 16**




## VI. Qeyri kommersiya hüquqi şəxslərinin BO-nun müəyyən edilməsinin spesifik xüsusiyyətləri

**31.** İçtimai birliklər və fondlar iştirak paylarına bölünmədiyi üçün bu növ hüquqi şəxslərin BO-sunun müəyyən edilməsində idarəetmə orqanlarının tərkibi və onların vəzifəyə təyin edilməsi və vəzifədən azad edilməsi qaydası mühüm əhəmiyyət daşıyır. İçtimai birliklər və fondların təsisçiləri bu qurumların fəaliyyətindən mənfəət götürmədiyi üçün kommersiya hüquqi şəxslərindən fərqli olaraq onların təsisçiləri BO kimi tanınmaya bilər. "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Qanuna görə içtimai birliklər və fondların nizamnaməsində onların idarəetmə qaydası göstərilir.

**32.** İçtimai birliklər və fondların BO-su təhlil olunarkən bu təsisatların idarəetmə strukturuna və iyearxiyasına, idarəetmə orqanlarının formalaşdırılması qaydasına və bu təsisatların vəzifəli şəxslərini təyin etmək hüququ olan şəxslərin dairəsinə baxılmalıdır. İçtimai birliyin icra orqanının üzvləri (təkbaşına və ya kollegial), fondun isə prezidenti və idarə heyətinin üzvləri BO kimi tanınmalıdır.

**33.** Əlavə olaraq bu vəzifəli şəxsləri vəzifəyə təyin etmək və vəzifədən azad etmək hüququ olan şəxslər də BO kimi tanınmalıdır. Nəzərə almaq lazımdır ki, fondun himayəçilik şurasının üzvləri ictimai əsaslarla fəaliyyət göstərirlər və fondda qərarların qəbul edilməsinə təsir imkanları məhduddur. Qeyri kommersiya təşkilatlarının BO-su müəyyən olunarkən hər bir halda həm yerli, həm də xarici fond və ictimai birliklərin əsasnamələri təhlil olunmalı və bu qurumlarda strateji qərarların qəbul edilməsinə əsas təsiri olan şəxslər müəyyən edilməlidir.

## VII. BO müəyyən edilərkən atılmalı olan ardıcıl addımlar

**34.** Hüquqi şəxsin BO-su müəyyən edilərkən aşağıdakı addımların atılması tövsiyyə olunur:

**a)** İlk öncə hüquqi şəxsin sahiblik və idarəetmə strukturu başa düşməyə çalışılmalıdır. Bunun üçün hüquqi şəxsin təsis sənədləri (təsis müqaviləsi, nizamnamə və sair) və fəaliyyətini tənzimləyən digər sənədlər müştəridən alınıb təhlil edilir. Əgər hüquqi şəxsin sahiblik və nəzarət strukturu mürəkkəbdirsə müştəridən BO açıqlanmaqla hüquqi şəxsin sahiblik və idarəetmə strukturuna dair visual xəritə tələb edilir. Müştəri vizual xəritə təqdim edə bilmirsə öhdəlik

daşıyan şəxsin özü bu cür vizuallaşdırmanı apara bilər;

**b)** Hüquqi şəxslərin sahiblik və idarəetmə strukturunda əhəmiyyətli rol oynayan şəxslər (BO və düzünə 10 faizlik və dolayı isə 25 faizlik hədlərə yaxın şəxslər, o cümlədən hüquqi şəxsə başqa formada nəzarəti həyata keçirmək ehtimalı olan şəxslər) müəyyən edildikdən sonra müştərinin təqdim etdiyi rəsmi sənədlər, müstəqil 3-cü mənbələr (açıq mənbələr, məlumat bazaları) və sorğu əsasında rəsmi qurumlardan alınmış məlumatlar əsasında fiziki şəxsin təhlil edilmiş hüquqi şəxsdə mövqeyi (səhmdar, vəzifəli şəxs, nominal saxlayıcı, əsas partnyor və sair) verifikasiya edilir;

**c)** Müəyyən edilmiş metodologiya uyğun olaraq hədd yanaşması tətbiq edilərək və ya hüquqi şəxsə başqa formada sahiblik və nəzarətin həyata keçirilməsi meyarları əsasında hüquqi şəxsin əsl sahibi olan və son nəticədə hüquqi şəxsə sahiblik və nəzarəti həyata keçirən şəxslər (BO) müəyyən edilir;

**d)** BO-nun müəyyən edilməsi ilə bağlı aparılmış təhlil yazılı hesabat şəklində müştəri profilinə əlavə edilir;

**e)** Müştəri profil riskindən asılı olaraq dövrülülüklə müştərinin sahiblik və nəzarət strukturunda dəyişiklik olduqda BO məlumatları yenilənir. Bunun üçün dövrü olaraq risk profilindən asılı olaraq müştəridən sahiblik və nəzarət strukturunda dəyişikliyin olub olmaması barədə məlumat əldə edilir. Əgər müştəri öz profilinə uyğun əməliyyatlar aparmamağa başlamışsa açıq mənbələrdən və ya sorğu əsasında məlumat bazalarından müştərinin BO-sunda dəyişiklik olub olmaması yoxlanılır;

**f)** BO nun effektiv şəkildə müəyyən edilməsi üçün risk idarəçiliyi sisteminin qurulması tövsiyyə olunur.

## VIII. Əməliyyatlara dair benefisiar mülkiyyətçinin müəyyən edilməsi əsasları

**35.** Benefisiar mülkiyyətçinin hüquqi şəxsin və hüquqi təsisatın strukturunda sahiblik, nəzarət və idarəetmə zəncirindən axtarılması ilə yanaşı, hüquqi şəxsin, hüquqi təsisatın əməliyyatlarının monitorinq edilməsi ilə də müəyyən edilməlidir.

Hüquqi şəxsin və hüquqi təsisatın strukturunda sahiblik, nəzarət və idarəetmə zəncirindən müəyyən edilmiş benefisiar mülkiyyətçinin öhdəlik daşıyan şəxsdə profili formalaşdırılmalı və hüquqi şəxsin və hüquqi təsisatın apardığı əməliyyatlar həmçinin benefisiar mülkiyyətçinin profilinə də uyğun olmalıdır.

**36.** Öhdəlik daşıyan şəxs tərəfindən mümkün uyğunsuzluq halında müştəri olan hüquqi şəxsə və ya hüquqi təsisata gücləndirilmiş müştəri uyğunluğu tədbirləri tətbiq edilməli və benefisiar mülkiyyətçinin müəyyən edilməsi məqsədi ilə gücləndirilmiş müşəri uyğunluğu tədbirləri çərçivəsində əlavə sənədlər və məlumatlar əldə edilməlidir. Təqdim edilən məlumatlar və sənədlər benefisiar mülkiyyətçini müəyyən etməyə imkan vermirsə və ya müştəri məlumat və sənədləri təqdim etməkdən imtina edirsə "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə haqqında" Qanunun 4.14-cü maddəsinin tələblərini tətbiq etməlidirlər.